# İndiyə zəfər, gələcək nəslə qürur

Ölkəmiz coğrafi mövqeyinə, yeraltı və yerüstü sərvətlərinə görə daim yadelli işğalçıların marağını çəkib.

Bəlkə də elə bu səbəbdən yurdumuzun övladları həm torpağın verdiyi yüksək istedada, həm də döyüşkənlik ruhuna, cəsarətə sahib çıxıblar...

XXI əsrdəki Vətən müharibəsi də bir daha təsdiqlədi ki, bu millətin genlərində cəsarət, igidlik, Vətəni uğrunda canı-qanı ilə döyüşmək əzmi var.

30 il əvvəl öz havadarlarının dəstəyi ilə Azərbaycanın Qarabağ torpaqlarını işğal etmiş erməniləri nə xalqımız, nə də məsələnin mahiyyətini bilənlər heç vaxt qalib hesab etmədilər. 44 günlük Vətən müharibəsində isə Azərbaycan Ordusu hər kəsə qələbənin necə qazanıldığını nümunə göstərərək tarix yazdı ...

Bu Zəfər yolunda qazanılan qələbədə payı olan əsgərlərimizdən biri də Orxan Oqtay oğlu Maqsudovdur. O, 1 sentyabr 1989-cu ildə Bakı şəhərində doğulub. 2007-ci ildə 2 saylı Dövlət Dəmir Yolları Liseyini, 2012-ci ildə isə Azərbaycan Kooperasiya Universitetini bitirib.

Ailəlidir, Səmra adında 3 yaşlı qız balası var. Vətən təəssübünü çəkən Orxan körpə balasını anasına əmanət edib döyüşə yollanmışdı. Ən təhlükəli döyüş yerlərində düşmənə qarşı cəsarətlə vuruşmuşdu. Orxanın döyüşdüyü 7-ci batalyon düşmənə böyük sarsıdıcı zərbələr endirib, Laçın dəhlizindən Ermənistan silahlı qüvvələrinin irəliləməsinə imkan verməyib. Düşmənin "Qrad" qurğusunu, tankını, topunu və xeyli canlı qüvvəsini sıradan çıxarıblar. Döyüş yolu əsasən Cəbrayıl, Qubadlı istiqamətindən keçən Orxan Maqsudov müharibənin sonuna qədər Qələbəmiz üçün əlindən gələni əsirgəməyib. Onun Ali Baş Komandan, Prezident İlham Əliyevin qiymətləndirdiyi igidlərin sırasında olması da bu xidmətinin nəticəsidir.




Orxan Maqsudov ölkə Prezidentinin sərəncamı ilə Cəbrayıl və Qubadlı ərazisinin azadlığı uğrunda medallara layiq görülüb.

Sıravi əsgər Orxan Maqsudov deyir: "Vətən uğrunda mübarizə aparmaq hamımızın vətəndaşlıq borcudur. Bizə dəyər verən Ali Baş Komandanımıza öz təşəkkürümü bildirirəm. Bu gün Hərbi Qənimətlər Parkında sərgilənən düşmən texnikalarının içərisində bizim vurduğumuz topun olması məni çox sevindirir. Biz bu ölkə üçün həmişə əsgərik, həmizə döyüşə hazırıq!"

Beləliklə, bu oğullar Azərbaycanın indisinə zəfər, gələcəyinə isə qürur bəxş etdilər. Zəfərin mübarək, Vətən!

***Zəkurə QULİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.-14 noyabr.- S.8.